# Laçın həsrəti sona çatır

## Daha 13 ailə doğma şəhərinə qayıtdı



**Prezident İlham Əliyevin birbaşa nəzarəti altında işğaldan azad olunmuş ərazilərdə başladılan yenidənqurma və bərpa işləri nəticəsində mənfur düşmənin 30 il ərzində xarabalığa çevirdiyi şəhər və kəndlərimizdə həyat yenidən canlanır. Genişmiqyaslı bərpa və quruculuq işləri hər ötən gün özünün ən yüksək səviyyəsinə çatır.**

Hazırda çiçəklənmə dövrünü yaşayan Şərqi Zəngəzurun dilbər guşəsi olan Laçın rayonu da sürətlə dirçəldilərək abad məkana çevrilir. Rayon yenidən qurulur, Laçın şəhəri başda olmaqla, yaşayış məskənləri bərpa edilir.

Böyük qayıdışın növbəti ünvanı olan Laçın şəhərinə dünən növbəti dəfə 13 ailəlik köç karvanı yola salınıb. Ümumilikdə üçüncü olan bu köç zamanı daha 44 nəfər azadlığına qovuşan Laçına qayıdışın sevincini yaşayıb. Uzun illərin həsrətindən sonra doğma torpaqlara qovuşmuş laçınlıların çöhrəsini bürüyən xoş təbəssüm fəxarət hissi doğurur.









### Zövqlə bərpa edilən və yenidən qurulan Laçın

Ermənilərin viran qoyduğu doğma torpaqlarımız "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində gerçəkləşdirilən bərpa və quruculuq işləri sayəsində xeyli dirçəlib. Prezident İlham Əliyev mayın 28-də Laçına qayıdan əhali ilə görüşdə aparılan quruculuq işlərindən bəhs edib. "Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər - hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun", - deyə dövlət başçısı bildirib. Doğrudan da Laçının müasir siması şəhərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin böyük zövq və yüksək keyfiyyətlə aparıldığını təsdiq edir.

Bu bir daha sübut edir ki, köçkünlərin doğma yurdlarına təhlükəsiz və ləyaqətlə qayıdışı dövlət siyasətinin prioritetlərindəndir. Ona görə də Prezident İlham Əliyevin xüsusi nəzarəti ilə icra edilən Böyük qayıdış proqramı çərçivəsində işğaldan azad edilmiş ərazilərin dirçəldilməsi istiqamətində işlər intensiv şəkildə həyata keçirilir, keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş şəhər və kəndlərimizə qayıdışı sürətlə icra olunur.

### Təbiətlə vəhdətdə olan şəhər

Laçında keçmiş məcburi köçkünlərin həyat şəraitini yenidən bərpa etmək üçün quruculuq işlərinə hələ ötən ildən etibarən başlanılıb. Laçında 620-si fərdi yaşayış binası olmaqla ümumilikdə 700 bina inşa edilir. Sakinlərin rahat və təhlükəsiz yaşayışı üçün bütün lazımi şərait yaradılır. Ötən gün Laçına yola salınmış 15 ailə ilə birlikdə şəhərdə indiyədək 55 ailənin, yəni 213 nəfərin daimi məskunlaşması təmin edilib. Laçında yaradılmış infrastruktur birinci mərhələdə orada 764 ailənin, təxminən 4 min nəfərin yaşamasına imkan verir.

Bütün bunlar Laçın şəhərinin baş planında da öz əksini tapıb. Yaxın illərdə laçınlı soydaşlarımızın hər birinin doğma yurdlarına qayıdışını təmin etmək üçün şəhərdə quruculuq-abadlıq işləri sürətlə davam etdirilir. Baş planın əsasında Laçın "təbiətlə vəhdətdə olan şəhər" kimi xarakterizə edilir. Qeyd olunur ki, növbəti mərhələdə rayonda iqtisadi şaxələndirmənin təmin edilməsi, ekologiyanın mühafizəsi, "yaşıl enerji" mənbələrindən və müasir texniki infrastruktur texnologiyalarından istifadə kimi məsələlərə diqqət artırılacaq. Baş plana əsasən, Laçın "ağıllı idarəetmə", müasir qabaqcıl təhsil və inklüziv mobillik həlləri ilə seçilən innovativ mərkəzə çevriləcək.

Ümumiyyətlə, coğrafi baxımdan mühüm strateji mövqedə yerləşən Laçında keçmiş sakinlərin orada yenidən məskunlaşdırılması Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdışın vacib mərhələsidir.

### Qarabağ və Şərqi Zəngəzur əzəli sahiblərinə qovuşurlar

Laçın rayonu nəhəng bərpa-yenidənqurma işlərindən və məskunlaşma mərhələsindən sonra təkcə Şərqi Zəngəzurun deyil, bütövlükdə Azərbaycanın iqtisadi inkişafına xüsusi töhfə verən bölgələrimizdən birinə çevriləcək. Bütövlükdə, 10 mindən çox vətəndaşımızın yaxın illərdə Laçın rayonuna qayıdacağı proqnozlaşdırılır. Ona görə də rayon sakinləri üçün keyfiyyətli həyat şəraiti yaratmaqdan ötrü fasiləsiz addımlar atılır. Görülən böyük işlərin nəticəsidir ki, işğaldan azad edilmiş ərazilərə köç edən digər soydaşlarımız kimi, bu gün laçınlılar da yurda qayıdışın sevincini yaşayır, Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını ifadə edirlər.

Sürətlə dirçələn Qarabağ və Şərqi Zəngəzur dövlətimizin, xalqımızın quruculuq əzminin bariz nümunəsinə çevrilib. Görünən odur ki, Vətən müharibəsi zamanı göstərilən milli birlik postmünaqişə dövrünün quruculuq və abadlıq mərhələsinə daşınıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin də qeyd etdiyi kimi, indi qurub-yaratmaq vaxtıdır: "Bugünkü Laçın şəhərinin siması, - halbuki qeyd edirəm, bu, sadəcə olaraq, birinci mərhələdir, - göstərir ki, biz qurub-yaradan xalqıq və göstərir ki, bu torpaq bizimdir".

Otuz ilə yaxın işğal altında qalmış torpaqlarımızın azadlığa qovuşması arzusu ilə yaşayan Azərbaycan xalqının bu gün də nümayiş etdirdiyi milli birlik doğma yurdlarımıza yeni nəfəs gətirir. Biz tezliklə nəinki laçınlıların, eləcə də Qarabağ və Şərqi Zəngəzur həsrəti ilə yaşayan bütün soydaşlarımızın simasında doğma yurda dönüşün sevincini görəcəyik. Vandallığa məruz qalmış ərazilərimiz bərpa olunduqca bütün keçmiş məcburi köçkünlər öz doğma evlərinə geri qayıdacaqlar.

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

Azərbaycan. - 2023.-20 iyun.- S.13.